"ŞƏFFAFLIQ AZƏRBAYCAN"
KORRUPSİYAYA QARŞI MÜBARİZƏ
İCTİMAİ BİRLİYİ

Əlaqə:
Kənan Qasımov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

APREL-İYUN 2009-CU İL ƏRZİNDƏ GÖRÜLƏN İŞLƏR BARƏDƏ

MƏTBUAT ÜÇÜN HESABAT

1. **TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT**
2. **MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT**
3. **DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ**
4. **MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI**
5. **UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR**

1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan "Transparency International" (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı antikorrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə antikorrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005-ci il Aprel ayının 1-dən etibarən "Şəffaflıq Azərbaycan" İB, MDB ölkələri arasında ilk dəfə olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşlara müxtəlif pulsuz xidmətlər göstərir. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 56 55 97**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55**

Layihə, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD təşkilatı), eləcə də ATƏT-in Bakı ofisinin qrant dəstəyi əsasında həyata keçirilir. Bu layihə bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

Layihənin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

Layihənin başlıca missiyası isə vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi-nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi proseduralarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

Layihə beş istiqamətdə həyata keçirilir:

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institusional inkişafına yardım**
- **Mobil treninq və seminar**

Hüquqi məsləhət: Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

Maariflənmə və məlumatlandırma: Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin antikorrupsiya sahəsində maariflənməsini nəzərdə tutur.

İctimai maraqların müdafiəsi: Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

Dövlət orqanlarının institusional inkişafına yardım: Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xətlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

Mobil treninq və seminarlar: Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil antikorrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

2006-cı ilin May ayında yaradılmış Şəffaflıq Azərbaycan təşkilatının və "ALAC" layihəsinin İnternet səhifələri birləşdirilərək bir səhifədə - www.transparency.az – cəmləşdirilib və vaxtaşırı məlumatlarla yenilənir.

2. MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT

- *Seminar və Tədbirlər*

Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə seminarlar təşkil ediblər.

Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:[1]

2009-cu il iyun ayının 15-17-də "Şəffaflıq Azərbaycan" Korupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin İcraçı Direktoru Rəna Səfərəliyeva "Transparency International" təşkilatının Makedoniyanın Ohrid şəhərində keçirilən Avropa və Mərkəzi Asiya ölkələri üzrə illik regional konfransında iştirak etmişdir. Regional konfransda Rəna Səfərəliyeva "Şəffaflıq Azərbaycan" tərəfindən uğurla həyata keçirilən ALAC layihəsinin icrası, onun fəaliyyət istiqamətləri, əldə edilən uğurlar və qarşıya çıxan problemlər ilə bağlı təqdimat keçirmiş, ölkədə korrupsiya ilə mübarizə istiqamətində görülən işlər barədə geniş məlumat vermişdir.

Yuxarıda şəkildə: Avropa və Mərkəzi Asiya ölkələri illik regional konfransı

"Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin İcraşı Direktoru Rəna Səfərəliyeva 2009-cu ilin 22-23 iyun tarixlərində Qazaxıstanın Alma-Ata şəhərində keçirilən "Beynəlxalq Antikorrupsiya Təcrübəsi və Qazaxıstanda Korrupsiyaya qarşı Mübarizə" adlı konfransda iştirak etmişdir. Konfransda Rəna Səfərəliyeva korrupsiya ilə mübarizə istiqamətində Azərbaycanda görülən işlər barədə danışmış, "Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən icra olunan ALAC layihəsinin korrupsiya ilə mübarizədə effektivliliyinə

[1] *Hesabatda yalnız bir neçə seminar işıqlandırılıb. Mərkəzlərin keçirdiyi və qatılığı digər seminarlar haqqında əlavə məlumat almaq üçün Layihənin İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssisi Kənan Qasımov ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.*

toxunmuşdur. Həyata keçirilən ALAC layihəsi çərçivəsində əldə edilən uğurlardan danışılıb, bu təcrübədən istifadə barədə fikir mübadiləsi aparılmışdır.

Yuxarıdakı şəkildə: Qazaxıstanda keçirilən konfransda

Layihənin Bakı mərkəzi 10 və 15 Aprel tarixlərində Bakı şəhəri 23 saylı məktəbdə yuxarı sinif şagirdləri üçün iki seminar təşkil edib. Seminarlarda əsasən demokratiya, insan hüquqları və bu istiqamətdə qarşıya çıxan problemlər barədə müzakirələr aparılıb. Şagirdlərə cəmiyyətin ən ciddi problemlərindən biri hesab edilən korrupsiya, onu doğuran səbəblər, ondan qorunma və ona qarşı mübarizə üsulları barədə məlumatlar verilib. İnteraktiv şəkildə keçirilən seminarda şagirdlərin fəal iştirakına şərait yaradılıb, onlara bir vətəndaş kimi vəzifələri, bu istiqamətdə görə biləcəkləri işlər başa salınıb.

Yuxarıdakı şəkildə: 23 saylı məktəbdə keçirilən tədbir

28 Aprel tarixində Bakı ofisində Azərbaycan Marketinq Cəmiyyətinin "İctimai Debat Layihəsi"-nin iştirakçıları üçün seminar təşkil edilmişdir. "Debat Vətəndaş Cəmiyyətində" İctimai Birliyi ilə birlikdə həyata keçirilən layihənin məqsədi 6 universitetdən seçilən 70-dən artıq tələbə üçün sonradan öz universitetlərində ictimai debatların keçirilməsini və korrupsiya ilə mübarizə üsullarını təbliğ etmək şərti ilə məlumatlandırıcı treninqlərin keçirilməsini təşkil etməkdir. Layihənin tərəfdaşlarından biri kimi, "Şəffaflıq Azərbaycan" İB tərəfindən Bakı ofisində tələbələrin qrup rəhbərləri və bir sıra digər gənclər üçün ölkədə korrupsiaynın hazırkı vəziyyəti, korrupsiyaya qarşı mübarizə üsulları, cəmiyyətdə bu halın aradan qaldırılması üçün görülməli olan işlər barədə məlumat verilib. Təlimdə həmçinin tələbələrə Şəffaflıq Azərbaycan və ALAC (İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzi) layihəsi barədə məlumatlar çatdırılmış, görülən işlər və əldə edilən uğurlar barədə informasiyalar verilmişdir. Təhsil Nazirliyi ilə birlikdə "Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Strategiya" çərçivəsində görülən işlər barədə danışılmışdır.

Yuxarıdakı şəkil: Tələbələr üçün keçirilən təlim

May ayının 13-də Müəllimlərin İxtisasartırma və Təkmilləşdirmə İnstitutunda 48 nəfər müəllim heyəti üçün seminar təşkil edilmişdir. Azərbaycanın müxtəlif bölgələrindən gələn müəllimlərin iştirakı ilə keçirilən tədbirdə korrupsiya və onu doğuran səbəblər barədə məlumat verilmiş, korrupsiya ilə mübarizə istiqamətində görülən işlər barədə müzakirələr aparılmışdır. Seminarda əsas məqsəd gənc nəslin yetişdirilməsində müstəsna rola malik müəllimlərin korrupsiyaya qarşı mübarizədə rolunu artırmaq, yaranan sualları cavablandırmaq olub.

Yuxarıdakı şəkildə: Müəllimlərin İxtisasartırma və Təkmilləşdirmə İnstitutunda keçirilən tədbir

Layihənin Quba Mərkəzində ABŞ İnkişaf Agentliyinin (USAID) nümayəndələri ilə görüş keçirilib. Görüşdə Quba mərkəzinin fəaliyyəti, qarşıya çıxan problemlər, dövlət qurumları ilə qurulan əməkdaşlıq, daha çox şikayət edilən sahələr və yaranan problemlərin həlli yolları müzakirə edilib.

Yuxarıdakı şəkildə: ABŞ İnkişaf Agentliyinin nümayəndələri ilə Quba Mərkəzinin görüşü

3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ

Hesabat dövrü ərzində "Şəffaflıq Azərbaycan" Korrupsiya qarşı Mübarizə İctimai Birliyi olaraq bir sıra dövlət qurumlarına keçirilən işə qəbul imtahanlarında müşahidəçi qismində iştirak etmişik. Ədliyyə Nazirliyi, Məhkəmə Hüquq Şurası, Azərbaycan Hüquqşünaslar Assosiasiyası tərəfindən Tələbə Qəbulu Üzrə Dövlət komitəsi ilə birlikdə həyata keçirilən imtahanlarda Bakı mərkəzinin hüquqşünası və layihə köməkçisi müşahidəçi qismində iştirak etmişdir. İştirak etdiyimiz imtahanlarda müşahidələrimizə əsasən deyə bilərik ki, heç bir qanun pozuntusuna rast gəlməmişik.

Hesabat dövrü ərzində Təşkilatın Bakı, Gəncə, Lənkəran, Quba və Şəki mərkəzləri beynəlxalq və yerli QHT-lər və Dövlət Strukturları tərəfindən təşkil olunmuş bir sıra tədbirlərdə iştirak etmişlər və bir sıra təşkilatlarda görüşlər keçirmişlər. Bunlardan Amerika İnkişaf Agentliyi (USAID), Demokrtaiya və Sülh İnstitutu, Fredrix Ebert Fondu, Vətəndaş Cəmiyyəti Forumu, Təhsildə İnnovasiyalar Mərkəzi, "Qaçqınların və Məcburi Köçkünlərin Hüquqlarını Müdafiə" İctimai Birliyi, Avrasiya Əməkdaşlıq Fondu, Açıq Cəmiyyət İnstitutu, Müasir Təhsilə Yardım Mərkəzi, Avropaya İnteqrasiyada Azərbaycan Milli Komitəsi, "İqtisadi Təşəbbüslərə Dəstək" İctimai Birliyi və sairələri göstərmək olar.

"Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin mərkəzləri "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsi, habelə "Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində regionlarda təlimlər keçiriblər. Belə ki, hesabat dövrü ərzində layihənin **Quba mərkəzi** –Xaçmaz rayonunun Sayad, Xanliqoba, Qalaxan, Qusar rayonunun Yeni Tahircal, Kuf Oba, Qarat Oba, Torpaq körpü, Gilah Oba, Əniğ, Yuxarı Ləyər, Xuray kəndlərində və Qusar rayonunun poçt idarəsində, **Şəki mərkəzi isə** - Şəki rayonunun Baş Yağışı, Qumux, Bideyiz, Baş Künqüt, Oraban, Baş Kəldək, Şin, Cunud və Oğuz rayonunun Kərimli, Qarabaldır, Yenikənd və Top kəndlərində yerli əhali üçün korrupsiyaya qarşı mübarizə istiqamətində maarifləndirici seminarlar təşkil etmişdir. Təlimlər daha çox kənd məktəblərində, çay evlərində və klublarda keçirilimişdir. Təlimlər kənd bələdiyyələri, yerli icra nümayəndələri və məktəb rəhbərliyi ilə birgə əməkdaşlıq şəklində icra olunmuşdur.

Mobil seminar xarakteri daşıyan təlimlər zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, habelə, "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın" icrası üzrə tədbirlər planı, təşkilatının fəaliyyət istiqamətləri və həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırıblar və şikayəti olan vətəndaşlara yerində pulsuz hüquqi yardım göstəriblər.

Beş yüz nəfərə yaxın iştirakçını əhatə etmiş seminarlar zamanı şikayət olunan sahələr arasında əsasən Bələdiyyələr, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, Azərenerji, Azəriqaz, Məhkəmələr, Polis və sair sahələr də vardır.

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

4. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1,402 ilkin zəng və şikayət qəbul edib: Bakı (138), Gəncə (381), Lənkəran (222), Quba (350) və Şəki (311).

Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.



Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, mərkəzlərə şikayət ilə müraciət edən kişilərin sayı qadınlara nisbətən daha çoxdur. Bu hal özünü daha çox kənd yerlərində büruzə verir. Bunun əsas səbəblərindən biri kimi yerli əhali ilə təşkil edilən görüşlərin daha çox çay evi və ya ofis daxilində keçirilməsini göstərə bilərik. Gəncə və Quba şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir.

Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:

Şikayətçilərin cinsi		Bakı XVI rüb	Gəncə XVI rüb	Lənkəran XVI rüb	Quba XVI rüb	Şəki XVI rüb
A	Kişi	137	197	148	204	191
B	Qadın	63	133	59	112	98
C	**Şikayətlərin ümumi sayı**	200	330	207	316	289

Şikayətçilərin yaşı

Lənkəran, Quba və Şəki mərkəzlərində ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Gəncə mərkəzində isə bir qədər daha yaşlı əhalinin aktivliyi nəzərə çarpır.

Yaş qrupu		Bakı XVI rüb	Gəncə XVI rüb	Lənkəran XVI rüb	Quba XVI rüb	Şəki XVI rüb
A	< 20	2	3	0	4	3
B	20 – 35	41	10	38	98	43
C	35 – 50	68	68	122	107	105
D	50 – 65	37	166	27	83	44
E	65 +	8	83	5	20	19
F	Müəyyən deyil	44	0	15	4	75
G	**Ümumi say**	200	330	207	316	289

Şikayətçilərin coğrafi yerləşməsi

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə kənd əhalisi də prosesə cəlb olunub. Quba və Şəki regional mərkəzlərinin kənd yerlərində keçirdikləri mobil təlimlərin nəticəsində mərkəzlərimizə müraciət edən kənd əhalisinin sayında da nəzərə çarpacaq artım müşahidə olunur.

Şikayətlərin ilkin qəbul olunma mexanizmi

Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

Şikayətlərin ünvanlandığı sahələr

Bu rüb ərzində mərkəzlər üzrə şikayətlərin ən çox ünvanlandığı sahələr müxtəlifdir. Amma şikayətlərin ünvanlandığı sahələri nəzərdən keçirərkən ən çox narahatçılıq doğuran sahələrin məhkəmə, pensiya və ünvanlı sosial yardım, polis, bələdiyyə (əsasən regionlarda) və kommunal xidmət sahələri ilə bağlı olduğu diqqət çəkir.

Şikayətlərin sahələr üzrə bölgüsü – 17-ci rüb (ümumi sayı – 1,342)



Sahələr üzrə		Bakı XVI rüb	Gəncə XVI rüb	Lənkəran XVI rüb	Quba XVI rüb	Şəki XVI rüb
A	Məhkəmə	32	84	11	107	33
B	Səhiyyə	4	5	6	0	6
C	Təhsil	3	9	3	9	7
D	Gömrük	0	0	0	1	0
E	Vergi/Maliyyə	4	0	0	0	5
F	Polis	21	43	12	20	24
G	Lizensiyalar (tikinti və s.)	0	0	0	0	0
H	Alqi-satqı	0	6	0	0	2
I	Özəlləşdirmə	10	0	1	7	6
K	Inspeksiya	0	0	0	0	0
L	İcra orqanları	3	11	8	7	8
M	Pensiya və ünvanlı sosial yardım	18	70	5	14	36
N	Əmək mübahisəsi	0	0	2	8	18
O	Bələdiyyə	0	30	26	50	9

P	Prokurorluq	17	59	1	0	1
Q	Özəl sektor	3	0	0	30	11
R	Hərbi Kommisarlıq	9	0	1	0	8
S	Kommunal xidmətlər	41	13	131	45	94
T	Müəyyən deyil	35	0	0	18	21
U	Müxtəlif sahələr üzrə ünvanlanan şikayətlərin ümumi sayı	200	330	207	316	289

Şikayətlərin sahələr üzrə bölgüsü - layihə boyu (ümumi sayı – 19,907)



6. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR[2]

Bakı mərkəzi üzrə

Enerji istifadəsinə görə tələb olunan artıq ödəmə silinib: Bakı mərkəzinə müraciət edən vətəndaş enerji sərfiyatına görə ona artıq ödəmə yazılması ilə bağlı şikayətini bildirib. Məsələ ilə əlaqədar Bakıelektrikşəbəkəyə göndərilən məktuba cavab olaraq bildirilib ki, vətəndaşın müraciətinə baxılıb və ona yazılan əlavə ödəmə silinib.

[2] *Burada yalnız uğurla həll edilmiş işlərin yalnız bəziləri qeyd olunub. Uğurlu işlərin tam siyahısını əldə etmək üçün 418 11 09 və ya 596 20 38 telefon nömrələri ilə "Şəffaflıq Azərbaycan" İB-yi ilə əlaqə saxlaya bilərsiniz.*

Pensiaya ödənildi: Xətai rayon ƏƏSM-şöbəsindən şikayət edən müraciətçi ona verilən pensiyanın az hesablandığını bildirib. Mərkəzin məsələ ilə əlaqədar aidiyyatı quruma göndərilən məktubuna cavab olaraq vətəndaşın pensiyasının yenidən hesablandığı, şikayətin təmin edildiyi və pensiyanın artırıldığı qeyd olunub.

Cinayət işinə yenidən baxıldı: Suraxanı Rayon Polis İdarəsindən şikayət edən vətəndaş cinayət işinə obyektiv baxılmaması ilə bağlı mərkəzə müraciət etmişdir. Mərkəz tərəfindən Daxili İşlər Nazirliyinə ünvanlanan məktuba göndərilən cavabda isə qeyd olunur ki, vətəndaşın şikayətinə baxılıb və günahkarların axtarışına başlanıb. Vətəndaş istintaqın gedişindən narazı olmadığını bildirib.

Əmək haqqı ödənildi: "Azərnəqliyyatyoltikinti" idarəsindən şikayət edən vətəndaş ona verilməli olan əmək haqqının ödənilməməsi ilə bağlı mərkəzə müraciət etmişdir. Mərkəzin məsələyə müdaxiləsinin ardından "Azernəqliyyatyoltikinti" idarəsindən bildirilib ki, şikayət təmin edilib və vətəndaşın əmək haqqı tez bir zamanda ödəniləcək.

Gəncə mərkəzi üzrə

Şikayət ərizəsinə baxılması təmin edilmişdir: Mərkəzimizə daxil olan müraciətdə vətəndaş döyülmə faktı ilə bağlı şikayət ərizəsinə Şəmkir royan polis idarəsində baxılmayaraq, saxlandığını bildirmişdir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyindən şikayətlə bağlı ünvanladığımız məktuba cavab olaraq bildirilir ki, müraciətçinin şikayət ərizəsi araşdırılıb, baxılması üçün Şəmkir RPŞ-nə göndərilmişdir. Nəticədə müraciətçinin şikayəti təmin edilmişdir.

Doğum haqqında şəhadətnamə rüşvətsiz təmin edilmişdir: Müraciətçi yeni doğulmuş uşağına doğum haqqında şəhadətnamə almaq üçün müraciət etdiyi Kəpəz rayonu VVADQ-şöbəsində ondan 40 manat rüşvət tələb olunduğunu bildirmişdir. Mərkəz tərəfindən aidiyyatı qurumlara edilən müraciətlərə cavab olaraq vətəndaş doğum haqqında şəhadətnaməni heç bir əlavə haqq ödəmədən əldə etmişdir.

Ünvanlı sosial yardım təyin olunmuşdur - Müraciətçi bildirir ki, ünvanlı sosial yardım almaq üçün müraciət etdiyi Gədəbəy rayonu, ƏƏSM-şöbəsində süründürməçiliklə üzləşir, onu əlavə get-gələ salırlar. Mərkəzin məsələyə müdaxiləsindən və aidiyyatı orqanlara müraciətindən sonra şikayətçinin sənədləri müvafiq qaydada qəbul olunmuş və ona ünvanlı sosial yardım təyin olunmuşdur.

Nəqliyyat vasitəsinin texniki baxışı rüşvətsiz icra edilmişdir: Müraciətçi nəqliyyat vasitəsinin texniki baxışdan keçirilməsi üçün Gəncə YPİ müraciət edərkən ondan 100 manat pul tələb edilməsi ilə bağlı şikayət etmişdir. Şikayət əsasında müvafiq qurumlara göndərilən müraciətlərin və mərkəzin müdaxiləsinin ardından vətəndaş 21 manat məbləğində dövlət rüsumunu ödəməklə, nəqliyyat vasitəsini texniki baxışdan keçirmişdir.

Cərrahiyyə əməliyyatı olunması ilə bağlı epiqrizlə təmin edilmişdir: Mərkəzə Şəmkir rayonundan müraciət edən vətəndaş cərrahiyyə əməliyyatı olunması ilə bağlı epiqriz almaq üçün xəstəxanaya müraciət etsə də, ondan həkimin 150 manat pul istəməsi ilə bağlı şikayətini bildirmişdir. Lazımı qurumlara edilən müraciətlər və mərkəzin müdaxiləsinin ardından şikayətçiyə epiqriz verilmişdir.

Mülkə hüquqverici sənədlər rüşvət ödənilmədən əldə edilmişdir: Müraciətçi bildirir ki, mülkə hüquqverici sənədlərin verilməsi üçün Əmlak Məsələləri üzrə Dövlət komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət reyestr Xidməti Gəncə Ərazi İdarəsinə müraciət edərkən ondan 2500 manat rüşvət tələb olunmuşdur. Lazımı qurumlara edilən müraciətlər və mərkəzin məsələyə müdaxiləsinin ardından vətəndaş dövlət rüsumlarını ödəyərək, mülkə hüquqverici sənədləri almışdır.

Notariat kontorunda yaradılan süni problem həll edilmişdir: Mərkəzə müraciət edən şikayətçi etibarnamə almaq üçün Notariat kontora müraciət edərkən, ondan 50 manat pul tələb olunduğunu bildirmişdir. Mərkəzin müdaxiləsindən sonra müraciətçinin şikayəti təmin olunmuş, dövlət rüsumunu, yəni 5.75 manat ödəməklə, etibarnaməni almışdır.

Lənkəran mərkəzi üzrə

Müəllim işlə təmin edilib: Şikayətlə mərkəzə müraciət edən vətəndaş iki ildir ona vəd edilən işlə təmin edilmədiyini, əlavə get-gelə salındığını bildirir. Məsələ ilə bağlı Lənkəran Rayon Təhsil İdarəsinə göndərilən məktuba cavab olaraq qeyd olunur ki, vətəndaş qısa müddətdə işlə təmin olunacaq. Sonradan məlumat aldıq ki, müraciətçinin şikayəti təmin edilib və o artıq işlə təmin edilib.

Avtomobilin nömrə nişanı və sənədləri sahibinə qaytarılmışdır: Mərkəzə daxil olan müraciətdə şikayətçi bildirir ki, nəqliyyat departamentinin işçiləri onun avtomobilinin nömrə nişanını söküb, sənədlərini əlindən alıblar. Şikayətlə bağlı mərkəzdən Nəqliyyat Nazirliyinə ünvanlanan məktuba cavab olaraq isə bildirilir ki, vətəndaş nazirliyə dəvət olunmuş, şikayəti təmin edilmiş və tərəflər arasında qarşılıqlı razılıq əldə edilmişdir.

Quba mərkəzi üzrə

Əmlaka qoyulan həbs götürülüb: Mərkəzə müraciət edən vətəndaş əmlakına qoyulan həbsin qanunsuz olaraq həbsdən çıxarılmaması ilə bağlı şikayətini bildirmişdir. Mərkəzin məsələyə müdaxiləsinin ardından vətəndaş şəxsən mərkəzə gələrək əmlakına qoyulan həbsin aradan qaldırıldığını və şikayətinin təmin edildiyini qeyd edib.

Məhkəmə qətnaməsi vətəndaşa təqdim olunub: Mərkəzə müraciət edən vətəndaş Sumqayıt Apellyasiya Məhkəməsindən qətnamənin ona verilməməsi ilə bağlı şikayətini bildirib. Aidiyyatı qurumlara göndərilən məktuba cavab olaraq isə, vətəndaşın şikayətinin təmin edildiyi və qətnamənin artıq ona təqdim olunduğu qeyd olunur.

Yol Polisi ilə bağlı şikayət müsbət həll edilib: Müraciətçi yol polisindən şikayət edərək ona qarşı qanunsuz olaraq yol hərəkəti qaydalarının pozulması haqqında protokol tərtib edildiyini bildirib. Mərkəzin məsələyə müdaxiləsinin ardından vətəndaş şəxsən mərkəzə müraciət edərək tələbinin təmin olunduğunu bildirib.

Sürücülük vəsiqəsi dəyişdirilib: Mərkəzə müraciət edən vətəndaş sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün ondan qanunda nəzərdə tutulmayan əlavə haqq tələb olunması ilə bağlı şikayətini bildirmişdir. Məsələ ilə əlaqədar AR DİN-nin Baş DYP İdarəsinə göndərilən məktuba cavab olaraq müraciətçinin məsələsinə baxıldığı və vətəndaşın sürücülük vəsiqəsi ilə təmin olunduğu bildirilir.

Enerji sərfiyyatı ilə bağlı tələb olunan artıq ödəmə silinib: Müraciətçi elektrik enerjisindən sərfiyyatla əlaqədar ondan artıq ödəmə tələb olunması ilə bağlı mərkəzə şikayət etmişdir. Məsələ ilə əlaqədar Sumqayıt Elektrik Şəbəkəyə göndərilən məktuba cavab olaraq qurumdan bildiriblər ki, şikayət araşdırılıb və artıq ödəmələr silinib.

Şəki mərkəzi üzrə

Əmək haqqları ödənilmişdir: 9 nəfər kollektiv şəkildə müraciət edərək "Qala"beynəlxalq Təhlükəsizlik Xidmətinin Şəki-Zaqatala Regional Şöbəsində işləməklərinə baxmayaraq onların əməkhaqqlarının ödənilməməsi ilə şikayət etmişlər. Məsələ ilə əlaqədar AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanan məktuba cavab olaraq isə qurumdan bildirilib ki, görülmüş tədbirlər nəticəsində şikayətçilərə bir ayının əmək haqqı tam məbləğdə ödənilib, qalan borcun isə 2009-cu ilin may ayının sonunadək ödəniləcəyinə zəmanət verilmişdir.

Şəxsiyyət vəsiqəsi dəyişdirilib: Mərkəzə müraciət edən vətəndaş şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi üçün ondan 11 manat pul tələb edildiyinə dair şikayətini bildirmişdir. Mərkəzin Şəki şəhər Polis Şöbəsinin Qeydiyyat Şəxsiyyət Vəsiqəsi bölməsinə ünvanlandığı məktuba cavab olaraq bildirilir ki, vətəndaşın şikayəti təmin edilib və Dövlət rüsumu haqqında qanuna əsasən 2 manat məbləğində dövlət rüsumu ödənildikdən sonra müraciətçiyə vəsiqə verilib.

Veteran vəsiqəsi təmin edilib: Müraciətçi Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi tərəfindən verilən vəsiqənin komissarlıqda təsdiq edilməməsi ilə əlaqədar **mərkəzə müraciət etmişdir.** AR Hərbi Komissarlığına göndərilən məktuba cavab olaraq bildirilmişdir ki, müraciətçinin şikayətini baxılmış AR Müdafiəsi Nazirliyinin Mərkəzi aparatı nəzdində fəaliyyət göstərən veteran adlarının və vəsiqələrinin verilməsi üzrə komissiya tərəfindən ərizəçinin veteran statusu təsdiq olunmuş və ona Şəki rayon hərbi komissarlığı tərəfindən vəsiqə təqdim edilmişdir.

2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəki mərkəzləri fəaliyyət göstərir. Layihənin Bakı, Gəncə, Lənkəran mərkəzləri ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), Quba və Şəki mərkəzləri isə ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında fəaliyyətləri həyata keçirilir. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir".

"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.